**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-386 nömrəli 28.08
2020-ci il tarixli ~~qərarı~~ ilə təsdiq
edilmişdir.

ƏSLİ İLƏ
DÜZDÜR

# ƏSAS (BAZA) ALİ TİBB TƏHSİLİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050903 - Stomatologiya**

**BAKI – 2020**

# ƏSAS (BAZA) ALİ TİBB TƏHSİLİNİN 050903-STOMATOLOGIYA İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Əsas (baza) ali tibb təhsilinin **050903 - Stomatologiya** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr (əsas (baza) ali tibb) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;

- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

**2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarınaa yiyələnməlidir:**

- Stomatologiyaya aid təməl bilik və yanaşmalara sahib olur;
- Ağız və diş sağlamlığı və xəstəliklərinin profilaktikası, müayinə və müalicəsinə aid müasir bilik, bacarıq və yanaşmalara sahib olur;
- Stomatologiya sahəsində texniki avadanlıqları, müayinə və müalicəyə aid bütün cihaz, alət və materialları tanıyır və səmərəli istifadə edir;
- Stomatologiyaya aid təməl elmləri və əlaqələrini bilir;
- Xəstəliklərin beynəlxalq təsnifatına uyğun olaraq xəstələrdən məlumat toplamağı bacarır;
- Xəstələrin ehtiyac və istəklərini nəzərə alaraq anamnez, müayinə, müalicə, profilaktika və meydana çıxa bilən yeni problemlər baxımından proqram planlaşdırır və tətbiq edir;
- Biotibbi və tibbi elmlər də daxil olmaqla stomatologiyanın elmi prinsipləri əsasında sağlamlığın qorunması və inkişaf etdirilməsi ilə ağız və diş xəstəliklərinin müayinə və müalicəsi üçün lazım olanları tətbiq edir, analiz və sintez etməyi bacarır;
- Stomatoloq peşəsinin tələb etidiyi təməl və müasir məlumatlara sahib olur, peşə fəaliyyəti müddətində stomatologiya ilə əlaqəli elmi məqalələri izləyir və peşə təcrübəsinə tətbiq edir;
- Stomatologiya sahəsində əldə etdiyi məlumatları kritik yanaşma ilə qiymətləndirir, tibb sahəsindəki disiplinlər ilə birləşdirir, analiz edir və bu məlumatları sintez edərək peşə təcrübəsində istifadə edir;
- Ağız və diş sağlamlığının əhəmiyyətini, xəstəliklərini, sağlamlığın qorunması üçün lazım olan üsulları, müalicələri, sistem xəstəliklərlə əlaqəsini, problemlərin qarşısını almaq üçün tətbiqləri və lazım olan texnologiyaları bilir;
- Xəstənin ümumi sağlamlıq problemlərini təhlil edib qiymətləndirir və mütəxəssisə istiqamətləndirməyi bacarır;
- Stomatologiya sahəsi ilə əlaqəli tədqiqatlarda layihələr hazırlayır, tədqiqat komandasının bir üzvü olur və əldə edilən nəticələri elmi səviyyədə qiymətləndirir;
- Stomatologiyaya aid məlumatları kritik yanaşma ilə qiymətləndirir, peşəsinə töhfə verən məlumatları iş təcrübəsində istifadə edir, bu zaman baş verən gözlənilməz vəziyyətlərdə təşəbbüs göstərərək həll yolları tapmağı bacarır;
- Stomatologiya sahəsində məlumatları sosial və elmi mühitdə yazılı, şifahi və vizual formada həmkarları ilə bölüşmək, müqayisə və mübadilə etməyi bacarır;
- Stomatologiya sahəsində səhiyyə siyasəti ilə əlaqəli fikir irəli sürür, profilaktik və müalicə fəaliyyətlərini elmi, etika və keyfiyyət çərçivəsində qiymətləndirir;
- Stomatoloji xidmət zamanı xəstə ilə düzgün ünsiyyət qurur, ictimai, elmi və etik dəyərlər çərçivəsində xəstəyə ən yaxşı müalicə metodunu təklif edir, etik və qanuni məsuliyyətini nəzərə alaraq müvafiq müalicəni həyata keçirir, bu müalicə ilə əlaqəli məlumatları toplayır və qeydiyyatını aparır;
- Stomatoloji təcrübəni daha da inkişaf etdirmək üçün milli və beynəlxalq tədqiatlarda iştirak edir, öz müşahidələrini, təcrübələrini və araşdırmalarını bölüşmək və təqdim etməyi bacarır;
- Peşə fəaliyyəti müddətində ömürboyu təhsil prinsiplərinə uyğun olaraq stomatologiyaya aid yeni məlumatları izləyir və peşə fəaliyyətində tətbiq edir;

- Tibb xidmətinə aid keyfiyyət təminatı standartlarını, xəstə-həkim hüquqlarını bilir və təmin edir;
- Stomatoloji təcrübədə etik və hüquqi qaydaları nəzərə alır, peşə ləyaqətini qoruyur, xəstənin hüquqlarına hörmətlə yanaşır, xəstə yaxınları və tibb işçiləri ilə ünsiyyət qurmağı bacarır, peşəkarlıq anlayışını mənimsəyir, yalnız xəstənin deyil cəmiyyətin də ağız və diş sağlamlığının qorunmasında cavabdehlik daşıdığını anlayır;
- Sərbəst fəaliyyəti zamanı ictimai mənşəli keyfiyyət təminatı qaydalarına uyğun olaraq köməkçi tibbi heyət daxil olmaqla bütün müəssisənin idarəedilməsini bacarır;
- Stomatologiya ilə əlaqəli məlumatların toplanması, tətbiq edilməsi və nəticələrin elan olunması zamanı ictimai, elmi, mədəni və etik dəyərlərə sahib olur;
- Mülki müdafiənin tibb xidmətinin təşkili və fəaliyyəti məsələlərini mənimsəməyi, daxili əmək intizamı qaydalarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası və yanğına qarşı mühafizə qayda və normaları haqqında biliklərə;

## 3. Təhsil Proqramının strukturu

3.1. **050903 - Stomatologiya** ixtisası üzrə Təhsil Proqramı 300 (5 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür.

*Cədvəl 1*

| **Fənlərin sayı** | **Fənnin adı** | **AKTS krediti** |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | |
| 4.1 | Fəlsəfə<br>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>Bioetika<br>Multikulturalizmə giriş | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi | 3 |

| | İxtisas fənləri | 170 |
|---|---|---|
| 5 | **İnsan anatomiyası və tibbi terminologiya**<br>*Bu fənn çərçivəsində İnsanda skelet sistemi, baş-boyun anatomiyası, ürək-damar, tənəffüs, həzm sisteminin, sidik-cinsiyyət sistemlərinin, mərkəzi sinir sisteminin və hiss orqanlarının anatomik quruluşu öyrədilir* | 10 |
| 6 | **Sitologiya, embriologiya və histologiya**<br>*Hüceyrə, toxuma və orqanların quruluşunu, inkişafını və həyati funksiyaları, pre- və postnatal ontogenezdə toxumaların inkişafı və reperativ imkanları, toxuma biologiyası sahəsində müasir tədqiqat metodları, mikroskopiya bacarıqlarını əldə etmək, histoloji şəkilləri və elektronoqrammaları təhlil etmək, 200-dən çox hüceyrə birliklərini və toxumaların quruluşu ilə onların inkişafı və funksiyası arasındakı əlaqələri görmək bacarığı öyrədilir* | 7 |
| 7 | **Tibbi biologiya və genetika**<br>*Molekulyar biologiya, hüceyrə biologiyası və molekulyar genetika haqqında məlumat verilir və bu biliklərdən stomatologiyada istifadə olunması, ağız və diş xəstəliklərinə genetik yanaşma öyrədilir* | 4 |
| 8 | **Normal fiziologiya**<br>*Hüceyrə, qan, əzələ, periferik sinir sistemi, çeynəmə və qan dövranının fiziologiyası, ağrı fiziologiyası, tənəffüs, həzm, sidik-cinsiyyət, mərkəzi sinir sistemlərinin, daxili sekresiya vəzilərinin, hiss orqanlarının fiziologiyası haqqında məlumatlar öyrədilir* | 8 |
| 9 | **Tibbi biokimya**<br>*Biokimya sahəsində ümumi məlumatları, hüceyrə, orqanellər, bioloji membranlar və maye mühitlərdə gedən biokimyəvi proseslər, stomatologiya sahəsində tətbiq edilməsi, ağız və diş toxumalarının xəstəlikləri zamanı biokimyəvi dəyişikliklərin aşkar edilməsində laborator testlərin əhəmiyyəti öyrədilir* | 4 |
| 10 | **Tibbi mikrobiologiya və ağız boşluğunun mikrobiologiyası**<br>Tibbi mikrobiologiya və ağız boşluğunun mikrobiologiyasının əsasları, insan *orqanizmində olan mikroorqanizm növlərini, hüceyrə, metabolik və patogenetik xüsusiyyətlərinin infeksion xəstəlikləri törətməsi arasındakı əlaqə öyrədilir. Diaqnostik metodlara uyğun olaraq klinik materialın götürülməsi, mikrobioloji müayinə üçün hazırlanması, kulturanın alınması, mikroskopik müayinə etmə bacarığı öyrədilir.*<br>*Mikroorqanizmlərin bir birilə və sahib orqanizm ilə əlaqəsi, xəstəliklərin etiopatogenezindəki rolu, insan orqanizminin immun cavab reaksiyası və törədicilərin təyin edilməsi üçün istifadə edilən diaqnostik metodları öyrədilir.*<br>*İnfeksion xəstəlik törədicilərinə qarşı istifadə edilən antimikrob preparatların növləri, təsir mexanizmləri, xüsusiyyətləri və istifadə formaları öyrədilir.*<br>*İmmun sistemin quruluşu, növləri, hüceyrələri və infeksion törədicilərə qarşı immun cavabın formaları, orqanizmin xüsusilə ağız boşluğunun müdafiə amilləri öyrədilir* | 5 |
| 11 | **Farmakologiya**<br>*Xəstəlik və patoloji proseslər zamanı müalicə və profilaktika məqsədilə istifadə olunan dərman maddələrinin təsnifat prinsipi, farmakokinetik və farmakodinamik xüsusiyyətləri, toksikologiya, farmakogenetika, farmakogenomika və toksikologiya əsas anlayışları, dərman formaları və reseptin yazılma qaydaları öyrədilir* | 3 |

| | | |
|---|---|---|
| 12 | **Patologiya**<br>*Hüceyrə patologiyası, ümumpatoloji proseslər (qan və limfa dövranı pozğunluqları, iltihab, immunopatoloji proseslər, kompensator-uyğunlaşma prosesləri, şişlər), ağız boşluğu üzvlərinin və çənə sümüklərinin xəstəlikləri zamanı baş vermiş struktur dəyişikliklər, stomatoloji xəstəliklərin klinik-morfoloji forma və mərhələləri haqqında bilik və bacarıqlar öyrədilir.* | 3 |
| 13 | **Diş müalicəsinin əsasları**<br>*Ağız boşluğunun anatomik və fizioloji xüsusiyyətləri, stomatoloji alətlər, stomatoloji kabinetin avadanlıqları, müayinə üsulları, deontologiya və ergonomika öyrədilir* | 5 |
| 14 | **Dişin sərt toxumalarının xəstəlikləri**<br>*Kariyes və qeyri-kariyes xəstəliklərinin etiologiyası, patogenezi, diaqnostikası, müalicə və profilaktika metodları öyrədilir* | 5 |
| 15 | **Restorativ diş müalicəsi**<br>*Kariyes boşluğunun preparasiyasının əsas prinsip və mərhələlərinin öyrənilməsi, müxtəlif növ materiallarla restovrasiya qaydaları, klinikaönü endodontiyadan anlayiş öyrədilir* | 12 |
| 16 | **Endodontiya**<br>*Dentin, pulpa və periapikal toxumaların anatomik və fizioloji xüsusiyyətləri, dişin innervasiyası və ağrının yayılması, pulpa xəstəlikləri və nekrozu, anamnez, klinik və radioloji təsvirlərin endodontiya cəhətdən qiymətləndirilməsi, müayinə və endodontik müalicə planlaşdırılması, endodontiyada radioloji müayinə üsulları, vital və devital dişlərdə endodontik müalicənin mərhələləri, təcili endodontik müalicənin əsasları, odontogen infeksiyaların yayılması və qorunma yolları, kök rezorbsiyaları, kök kanallarının biomexaniki preparasiyası və dezinfeksiyası, kök kanalı dolğu materiallarının təməl xüsusiyyətləri və tətbiqi, endodontiyada həkim səhvləri öyrədilir* | 12 |
| 17 | **Dişlərin morfologiyası və oyma texnikası**<br>*Ayrı-ayrı dişlərin morfoloji quruluşu, dişlərin bir-birləriylə okklüziya münasibətləri, dişlərin inkişafı, parodontun quruluşu, dişlərin çıxması və diş formullarını izah etmək üçün bu yöndə təməl bilikləri aşılanır. Eləcə də, müxtəlif növ modelləşdirici materiallardan istifadə etməklə ayrı-ayrı dişlərin oyma texnikası öyrədilir.* | 6 |
| 18 | **Ortopedik stomatologiyanın əsasları**<br>*Üz-çənə sisteminin funksional anatomiyası, çənənin biomexanikası, okklüziyanın xüsusiyyətləri, ortopedik stomatoloji kabinetin və diş texniki laboratoriyasının təşkili, ortopedik stomatoloji klinikada xəstənin ümumi və xüsusi müayinə üsulları, protezlənməyə hazırlanması,stomatoloji deontologiya, stomatoloji materialşünaslıq, o cümlədən ölçü materialları ətraflı öyrədilir.* | 6 |
| 19 | **Diş tacının protezləri**<br>*Diş tacının kariyes və qeyri-kariyes mənşəli qüsurlarının ortopedik konstruksiyalarla, o cümlədən inley, onley, overley, vinir, tam metal qapaq, metal-keramik qapaq və tam keramik qapaqlarla, həmçinin ştiftli və güdüllü qapaqlarla bərpasının klinik və laborator mərhələləri öyrədilir.* | 5 |
| 20 | **Diş sırasının çıxmayan protezləri**<br>*Diş sırasının müxtəlif qüsurlarının, eləcə də bu zaman yaranan ikincili deformasiyaların etiologiyası, patogenezi və təsnifatı, həmin qüsurların* | 5 |

| | | |
|---|---|---|
| | *müxtəlif konstruksiyalı çıxmayan körpüyəbənzər protezlərlə bərpasının klinik və laborator mərhələləri, həmçinin dişin sərt toxumalarının patoloji sürtülməsinin ortopedik müalicəsi öyrədilir.* | |
| 21 | **Hissəvi çıxan protezlər**<br>*Diş sırasının müxtəlif mənşəli qüsurlarının çıxan ortopedik konstrukasiyalarla, o cümlədən hissəvi çıxan lövhəli protezlər və hissəvi çıxan bügel protezləri ilə bərpasının klinik və laborator mərhələləri, eləcə də həmin protezlərin təmiri üsulları öyrədilir.* | 6 |
| 22 | **Tam çıxan protezlər**<br>*Dişlər tam itirildikdən sonra əng və çənədə gedən anatomik-fizioloji dəyişikliklər, həmçinin dişsiz əng və çənənin çıxan lövhəli protezlərlə bərpasının klinik və laborator mərhələləri, eləcə də tam çıxan protezlərin təmiri qaydaları öyrədilir.* | 6 |
| 23 | **Ağız və üz-çənə cərrahiyyəsinin əsasları**<br>*Fənnin öyrədilməsi məqsədi, onun digər sahələr ilə əlaqəsi, ixtisasa sahib olma yolları, ixtisasın inkişaf tarixi, ölkəmizdə xidmətin müasir strukturu,ambulator yardımın və stasionar xidmətin təşkili, tibbi sənədləşmələrin aparılması qaydaları, tibbi-huquqi məsələlər; ixtisasın müayinə və müalicə prinsipləri, orqan və sistemlərin müayinəsi, ağız boşluğu və üz-çənə nahiyyəsinin kliniki, eləcə də rentgenoloji və laborator müayinələri; yanaşı gedən somatik pozuntularla xəstələrin cərrahi əməliyyata hazırlanması xüsusiyyətləri; cərrahi əməliyyatın aparılamsı şəraiti, ağız və üz-çənə cərrahiyyəsində aseptika və antiseptika tədbirləri; ambulator şəraitdə rast gəlinən təxirəsalınmaz halların vaxtında diaqnostikası və müalicə tədbirləri; ağız və üz-çənə cərrahiyyəsində ağrısızlaşdırmanın prinsipləri, ağrının əmələ gəlmə mexanizmi, ağrısızlaşdırma növünün seçilməsi, ümumi ağrısızlaşdırmada narkozun növləri və istifadə olunan vasitələrin kliniki-farmakoloji xüsusiyyətləri, yerli ağrısızlaşdırmanın növləri və istifadə olunan vasitələrin kliniki-farmakoloji xüsusiyyətləri, yerli və ümumi ağrısızlaşdırmalara göstəriş və əksgöstərişlər, yerli ağrısızlaşdırmaların aparılması qaydaları, eləcədə rast gəlinən ağırlaşmalar və onların profilaktikası, eləcə də aradan qaldırılması; ağız və üz-çənə cərrahiyyə texnikasının ümumi prinsipləri (kəsiklərin aparılması, yarada hemostaza, yaraların bağlanması) eləcədə də istifadə olunan alətlər və materiallar, yaraya qulluq, cərrahi yaraların sağalması, patoloji çapıqların əmələgəlməsi və onların müalicəsi haqqında bilik verilir.* | 5 |
| 24 | **Dişlərin ekstraksiyası**<br>*Dişin çıxarılmasında aparılan əməliyyatönü tibbi müayinələr və əməliyyata pasiyentin, eləcə də tibb personalın hazırlanması qaydası; dişlərin çıxarılması əməliyyatına göstəriş və əksgöstərişlər; çıxarılacaq dişin klinki və rentgenoloji qiymətləndirilməsi; dişlərin çıxarılması əməliyyatı pasiyentin və həkimin qarşılıqlı yerləşməsi; diş çıxarılmasında istifadə olunan alətlər; diş çıxarılmasında mexaniki prinsiplərlə kəlbətin və elevatorların istifadəsi qaydası; dişlərin qapalı çıxarılması metodu; müxtəlif qrup dişlərin çıxarılması texnikası; çıxarılan dişin diş yuvasına qulluq; dişlərin açıq çıxarılması metodu; alveol çıxıntısında yumşaq toxuma və selikli qişa-sümüküstülüyü dilimlərin yaradılması;çoxsaylı diş çıxarılmasında planlaşdırma, ardıcılıq və texniki icrası qaydası; retensiya olunmuş dişlərin çıxarılmasına göstərişlər və* | 5 |

| | | |
|---|---|---|
| | *əksgöstərişlər, retensiya olunmuş dişlərin təsnifatlandırması, retensiya olunmuş dişlərin çıxarılması texnikası; dişlərin çıxarılması əməliyyatında çıxarılan dişin, eləcədə ətraf strukturların zədələnməsi ilə əlaqədar ağırlaşmalar-onların profilkatikası və aradan qaldırılması; əng cibi dibinin perforasiyası (oroantral əlaqənin yaranması), əməliyyatdan sonraki qanaxmalar və digər ağırlaşmalara nəzarət, diş yuvasının sağalması problemləri; diş çıxarılması əməliyyatın tibbi kitabçada qeydi haqqında məlumat verilir* | |
| 25 | **Yumşaq toxumaların iltihabi xəstəlikləri**<br>*Üz cənə nahiyəsində odontogen iltihabi xəstəliklər, abses və fleqmonalar, periostit və osteomielitlər, əng ətrafı odontogen iltihabi proseslər, çənə ətrafı odontogen iltihabi proseslər, çəthi və dərin forma abses və fleqmonalar, tüpürcək vəzlərinin qeyri-şiş xəstəlikləri haqqında bilik və bacarıqlar öyərdilir* | 6 |
| 26 | **Periodontoloji cərrahiyyə və implantologiya**<br>*Periodontoloji cərrahiyyənin məqsəd və vəzifələri, periodontoloji cərrahiyyənin inkişaf mərhələləri, paradontun klinki anatomiyası, periodontoloji cərrahiyyədə müayinə xüsusiyyətləri, periodontoloji cərrahiyyə usulları və istifadə olunan alətlər, periodontoloji cərrahiyyə göstəriş və əksgöstəriş, pasiyentlərin seçimi və cərrahi əməliyyatın planlaşdırılması, əməliyyatdan sonraki gedişat və ağırlaşmalar, protezönü cərrahiyyənin məqsəd və vəzifələri, diş protezləşməsinə ağız boşluğunun yumuşaq toxumalarının cərrahi üsullarla hazırlanması, diş protezləşməsinə ağız boşluğunun sərt toxumalarının cərrahi üsullarla hazırlanması;<br>Dental implantologiyanın məqsədi, terminologiya, diş implantasiyasının təkmilləşmə yolu, diş implantatlarında istifadə olunan materiallar, diş implantatların növləri və strukturu, diş implantasiyanın bioloji əsaslandırılması, xidmətin təşkili üçün şərait-əməliyyat otağı, alətlər, avadanlıq. Əməliyyatönu hazırlıq (müayinə və planlaşdırma) və sənədləşmənin aparılması, göstərişlər və əks göstərişlər, çənənin və əngin topoqrafik və anatomik xüsusiyyətləri, dental implantasiyada istifadə olunan təsnifatlar, dental implantasiyanın cərrahi aspektləri, dental implantalogiyada ağırlaşmalar və onların müalicəsi haqqında bilik və bacarıqlar öyrədilir* | 6 |
| 27 | **Diş xəstəliklərinin profilaktikası**<br>*Stomatoloji xəstəliklərin profilaktikasında müasir üsullara aid məlumatlar, profilaktikanın həyata keçirilməsinin vacibliyi, ağız boşluğu organların quruluşu, stomatoloji profilaktikanın nəzəri əsasları, flüorun kariestatik effekti, profilaktik tədbirlərin, ağız boşluğunun fərdi və professional gigiyenası işininin həyata keçirilməsində istifadə olunan müvafiq alət, cihaz və avadanlıqlar öyərdilir* | 5 |
| 28 | **Uşaq stomatologiyasının əsasları**<br>*Azərbaycanda uşaq stomatologiyasının inkişaf tarixi, uşaq stomatoloji yardımın təşkili, uşaq yaşlarında stomatoloji dispanserizasiya, uşaqların üz-çənə nahiyyəsinin yaş və inkişaf xüsusiyyətləri, somatik və infeksion xəstəliklər zamanı uşaqlarda ağız boşluğunda yaranan dəyişikliklər, stomatoloji sınaqlar və testlər, uşaqların diş müalicəsinə hazırlanması, uşağın davranışının korreksiyası, uşaq terapevtik stomatologiyasında ağrısızlaşdırma, ümumi ağrısızlaşdırma şəraitində stomatoloji yardımın göstərilməsi haqqında biliklər öyrədilir* | 5 |

| | | |
|---|---|---|
| 29 | **Uşaq stomatoloji xəstəliklərin terapiyası**<br>*Uşaqlarda kariyes və onun ağırlaşmaları, yaranma mexanizmləri, uşaqlarda gedişatının xüsusiyyətləri, qeyri kariyes mənşəli xəstəliklərin etiologiyası, patogenezi, diaqnostikası və müalicə üsullarının fərqləri öyrədilir* | 5 |
| 30 | **Uşaq stomatoloji xəstəliklərin cərrahiyyəsi**<br>*Uşaqlarda üz-çənə nahiyəsinin cərrahi stomatoloji xəstəliklərinin müayinəsi, ağrısızlaşdırmalar, dişlərin çəkilməsi, üz-çənə nahiyəsinin iltihabi xəstəliklərinin etiologiyası, patogenezi, klinikası, mikrofloranın rolu, makroorganizmin immun sisteminin vəziyyəti , müalicə və reabitasiya tədbirləri həyata keçirilməsi üçün müvafiq tədbirlərinin aparılması, üz-çənə nahiyəsinin anadangəlmə qüsurlarının, qazanılmış defekt və deformasiyalarının aradan götürülməsinə, eləcə də estetik bərpaedici və rekonstruktiv cərrahiyyə üsulları öyrədilir* | 5 |
| 31 | **Ortodontiya**<br>*Dişlərin, çənələrin, üz sketetinin inkişaf və böyüməsi, diş-çənə anomaliyalarının etiologiyası, patogenezi, diaqnostikası, profilaktika üsulları, müasir ortodontik aparatlar, diş-cənə anomaliyalarının etiologiya və patogenezinin öyrənilməsində istifadə olunan diaqnostika və müalicə üsulları öyrədilir* | 12 |
| 32 | **Mülki müdafiə**<br>*Bu fənn Azərbaycan Respublikasında fövqəladə halların idarə olunması, fövqəladə halların xarakteristikasını, fövqəladə hallardan əsas müdafiə üsullarını və vasitələri, fövqəladə hallar zamanı yaranmış şəraitinin qiymətləndirməsi, özünə və digər şəxslərə yardım etməyi, istehsalat proseslərində mülki müdafiə planının hazırlanması kimi məsələlərin həlləri öyrədilir* | 3 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər[1]** | **70** |
| | **Təcrübə** | |
| ... | **Təcrübə** | **30** |
| | **CƏMİ AKTS** | **300** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

---

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- simulyasiyalar;
- və s.

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;

- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:
- ixtisas kafedraları;
- müvafiq auditoriya fondu;
- elmi-tədris laboratoriyası;
- stomatoloji tədris mərkəzi
- kompüter sinfi;
- istehsalat təcrübənin keçirilməsi üçün baza müəssisələri;
- kitabxana;
- kliniki bazalar;

və s.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. İxtisasın spesifikasından asılı olaraq təcrübənin nəticələrinin qiymətləndirilməsi meyarları ali təhsil müəssisəsinin Elmi Şurası tərəfindən müəyyənləşdirilir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **050903 - Stomatologiya** ixtisası üzrə məzunlara Stomatoloq ali peşə ixtisas dərəcəsi verilir. Məzunlar dövlət və özəl tibb müəssisələrində, eləcə də sərbəst olaraq öz stomatoloji kabinetlərində həkim-stomatoloq kimi işləyə bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz media resurslarında yerləşdirməlidir.

9.3. **050903 - Stomatologiya** ixtisası üzrə bakalavr dərəcəsi alan həkimlər müxtəlif ixtisaslar üzrə rezidentura və Səhiyyə, rifah və xidmət qrupuna aid bəzi ixtisaslar üzrə magistratura səviyyəsində davam etdirə bilərlər

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**RAZILAŞDIRILMIŞDIR:**
Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

_______________ Yaqub Piriyev

"28" 08 2020-ci il

Səhiyyə, rifah və xidmət, Əsas (baza ali) tibb təhsili ixtisasları ixtisaslar qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

_______________ prof. Gəray Gəraybəyli

"27" 08 2020-ci il

Əlavə 1

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Məzun Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair biliklərə, Azərbaycan xalqının milli-mənəvi, mədəni-tarixi dəyərlərini ictimai həyat və fəaliyyətində tətbiq etmək və Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olur |
| **PTN 2.** Məzun Azərbaycan Respublikasının rəsmi dövlət dili olan Azərbaycan dili ilə yanaşı ən azı bir xarici dildə işgüzar və akademik kommunikasiyaya sahib olub, bu imkandan öz peşə fəaliyyətində istifadə etmək, xarici dildə gündəlik fəaliyyəti ilə bağlı ünsiyyət qurmaq, fikrini şifahi və yazılı ifadə etmək, xəstə, xəstə yaxınları, digər tibb işçiləri, cəmiyyət, müvafiq qurumlar, media ilə yazılı və şifahi ünsiyyət qurmaq, ixtisasına aid xarici ədəbiyyatdan istifadə etmək bacarığına malik olur |
| **PTN 3.** Məzun peşəsi ilə əlaqəli elmi məlumatları toplamaq üçün sərbəst şəkildə informasiya-kommunikasiya texnologiyalarından istifadə edir, elektron formada yazışmalar apara bilir, əldə etdiyi məlumatların və mənbələrinin dürüstlüyünü qiymətləndirməyi və elmi məlumatları peşə təcrübəsində tətbiq etməyi bacarır |
| **PTN 4.** Məzun peşəsi ilə əlaqəli qanunvericiliyi, deontologiyanı və etik qaydaları bilir, sərbəst şəkildə peşə fəaliyyəti ilə məşğul olarkən peşəsi ilə əlaqəli qanunvericiliyə, qaydalara və etik prinsiplərə riayət etməyi bacarır |
| PTN 5. Fərdi profesional inkişafını planlaşdıraraq ömürboyu təhsil prinsiplərini həyata keçirməyi, zəruri hallarda həmkarlarından kömək istəməyi, lazım gəldikdə öz bilik bə bacarıqlarını həmkarları və digər tibb işçiləri ilə bölüşməyi, peşəsi ilə əlaqəli maarifləndirmə işi aparmağı bacarır |
| **PTN 6.** Məzun insan orqanizminin xüsusilə də baş – boyun nahiyəsinin hüceyrə, toxuma, orqan və sistem səviyyəsində normal quruluşunu, funksiyalarını, inkişaf xüsusiyyətlərini və bir-biri ilə qarşılıqlı əlaqələrini bilir |
| **PTN 7.** Ağız və diş xəstəliklərinin etiologiyasını, əmələgəlmə mexanizmlərini, xəstəliklərin ağız boşluğu və dişdə yaratdığı dəyişiklikləri bilir, əlamət və simptomlarına görə xəstəlikləri bilir və müvafiq diaqnostik metodları istifadə etməklə diaqnoz qoymağı bacarır |
| **PTN 8.** Ağız boşluğu, diş - çənə sistemindəki xəstəliklərin cəmiyyətdə rastgəlinmə tezliyini və digər orqan və sistemin xəstəlikləri ilə əlaqələndirməyi bilir, qarşısının alınması istiqamətində fəaliyyət göstərməyi və zəruri hallarda xəstəni müvafiq həkim-mütəxəssisə yönləndirməyi bacarır |
| **PTN 9.** Məzun mülki müdafiənin tibb xidmətinin təşkili və fəaliyyəti məsələlərini mənimsəyir, daxili əmək intizamı qaydalarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası və yanğına qarşı mühafizə qayda və normaları haqqında biliklərə sahib olur |

| Fənn üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1 (Azərbaycan tarixi)** |
| 1. Azərbaycanın dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırır, bunun üçün dövlətçilik ənənələrinin keçmişi və bu günü haqqında zəruri biliyə malik olduğunu nümayiş etdirir, faktları ümumiləşdirir, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə etmək vərdişlərinə yiyələnir;<br>2. Azərbaycanın dövlətçilik ənənələrinin tarixi haqqında, onun yaranması, formalaşması və inkişafı dinamikasını dövrün xüsusiyyətləri baxımından izah edir, onlar arasında səbəb və nəticə əlaqələrini təhlil edir və ona münasibət bildirir; |

3. Müasir Azərbaycan dövlətçiliyinin formalaşmasına təsir edən siyasi, ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil, tədqiq və təbliğ edir;
4. Fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir;
